# Şüvəlanda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə uşaqlar üçün bayram tədbiri təşkil edilib

Dekabrın 28-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nəzdində fəaliyyət göstərən Şüvəlan Uşaq və Ailələrə Dəstək Mərkəzində (UADM) Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə tədbirlər keçirilib.



Komitənin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə şəhid və qazi övladları, xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud uşaqlar və mərkəzin benefisiarları iştirak ediblər.

Dövlət Komitəsinin sədri Bahar Muradova tədbir iştirakçılarını salamlayaraq, hər kəsi bu əlamətdar günlər münasibətilə təbrik edib, ən xoş arzularını çatdırıb. O, Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əhəmiyyətini, həmvətənlərimizin birliyini, o cümlədən ölkəmizin son illər ərzində əldə etdiyi uğurları diqqətə çatdırıb.

B.Muradova bildirib ki, Azərbaycan dövləti, Prezident İlham Əliyev, Birinci vitse-prezident xanım Mehriban Əliyeva tərəfindən uşaqların xoşbəxt və firavan yaşaması, əsl vətəndaş kimi yetişmələri üçün lazım olan hər bir şərait təmin edilir. Azərbaycanın Vətən müharibəsini böyük Qələbə ilə başa vurduğunu, hazırda işğaldan azad olunan torpaqlarımızda genişmiqyaslı quruculuq işlərinin aparıldığını deyən komitə sədri bildirib ki, vaxtilə Qarabağdan didərgin düşmüş uşaqlar indi öz evlərinə qayıdacaqlar və bu bayramı daha yüksək əhvali-ruhiyyə ilə keçirəcəyik. Bahar Muradova 2022-ci ildə də ölkəmizin böyük uğurlar əldə edəcəyinə əminliyini bildirib.Tədbir çərçivəsində uşaqlar üçün bədii-əyləncəli proqram təşkil olunub, onların hazırladıqları kompozisiyalar, rəqs nümunələri nümayiş etdirilib. Uşaqlara hədiyyələr və bayram sovqatları təqdim olunub.

Ümumilikdə, 100-dək uşağın iştirak etdiyi tədbirin sonunda xatirə fotoları çəkdirilib.

Azərbaycan.- 2021.- 29 dekabr.- S. 4.